Funded by the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

Avropa İttifaqı Azərbaycanda dairəvi iqtisadiyyatı və müəsissələr üçün yeni inkişaf imkanlarını təşviq edir

Bakı, 13 May 2024

Azərbaycan daha yaşıl, daha dayanıqlı və sağlam iqtisadiyyata doğru öz yolunda irəliləməyə davam edir. Bu qətiyyət növbəti onillikdə sosial-iqtisadi inkişaf istiqamətlərini müəyyən edən "Sosial-iqtisadi inkişafın milli prioritetləri: Azərbaycan – 2030" strateji yol xəritəsinin təsdiq edilməsi ilə aydın əksini tapıb. Sənəddə müəyyən edilmiş beş Milli Prioritetdən üçü birbaşa Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) fəaliyyətləri ilə bağlıdır. Dayanmadan inkişaf edən rəqabətədavamlı iqtisadiyyatın qurulması, o cümlədən təmiz ətraf mühitə və milli "yaşıl artım"a sərmayə qoyuluşu Azərbaycanda sənayenin dayanıqlı inkişafı üçün əsas sahələrdir.

2021-ci ildən etibarən "Ətraf Mühit naminə Avropa İttifaqı" (EU4Environment) proqramı vasitəsilə Avropa İttifaqı və digər beynəlxalq tərəfdaşlar dairəvi iqtisadiyyata keçidin bir hissəsi kimi RSDTİ-ni təşviq etməklə Azərbaycan müəssisələrinə dəstək verirlər. Bu yanaşma tullantıların azaldılması, enerji və sudan daha səmərəli istifadə və uzunmüddətli xərclərə qənaət daxil olmaqla, Kiçik və Orta Müəssisələrə (KOM) xüsusi diqqət yetirməklə, artıq 35 müəssisəyə nəzərəçarpacaq faydalar gətirmişdir.

EU4Environment təşəbbüsü çərçivəsində təşkil edilən Azərbaycanda dairəvi iqtisadiyyat prinsiplərinin tətbiqi üzrə yekun milli konfransda həyata keçirilən RSDTİ təşəbbüslərindən ölkənin əldə etdiyi nailiyyətlər və öyrənilmiş dərslər vurğulandı. Ölkədə bir sıra pilot müəssisələr rəqabət üstünlüklərini yaxşılaşdırmaqla yanaşı, öz istehsallarında resurslardan istifadəni, maliyyə xərclərini və ətraf mühitə təsirləri azaltmaqda faydalar və nəzərəçarpacaq nəticələr nümayiş etdirdilər.

*"Bu konfrans çox vaxtında keçirilir. Bu, Azərbaycanın noyabrda COP29-a ev sahibliyi etməyə hazırlaşdığı bir vaxtda baş verir. Azərbaycanda dairəvi iqtisadiyyatın gücləndirilməsi bu səylərin əsas hissəsidir. Enerji səmərəliliyi, dayanıqlı kənd təsərrüfatı, su idarəçiliyi və s. bütün bunlar Aİ-Azərbaycan əməkdaşlığının ayrılmaz hissəsidir", - deyə Azərbaycan Respublikasında Avropa İttifaqı Nümayəndəliyinin Əməkdaşlıq Şöbəsinin rəhbəri cənab Viktor Bojkov vurğulayıb. O, həmçinin əlavə etdi: "Dairəvi iqtisadiyyatın gücləndirilməsi birbaşa Aİ-nin Yaşıl Sazişin ümumi məqsədləri və Avropa Komissiyasının 2020-ci ilin Mart ayına aid Dairəvi İqtisadiyyat üzrə Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlıdır. Bu, həm də Aİ-nin 2050 iqlim neytrallığı hədəfinə nail olmasına töhfə verir".*

*"3 il öncə bu layihəyə başlayarkən qarşıda duran çətinliklərə baxmayaraq dövlət orqanlarının dəstəyi, istehsalat şirkətlərinin marağı sayəsində böyük inkişaf yolu keçməklə əlamətdar uğurlara imza atdıq. Çoxlu sayda müəssisədə RSDTİ yönümlü auditlər aparılmış, faydalı tövsiyələr sayəsində əhəmiyyətli qənaətlərə nail olunmuş, regionlarda istehsalat müəssisələrini bir araya gətirən RSDTİ klubları yaradılmış, ölkədə fəaliyyət göstərən profil təşkilatlarla əməkdaşlıqlar qurulmuşdur. Bu layihənin əldə etdiyi uğurların və nailiyyətlərin ölkəmizin yaşıl inkişaf yolunda atdığı addımlara töhfəsi təqdirəlayiqdir və ölkəmizdə keçiriləcək mötəbər COP29 tədbirində maraqlı tərəflərə uğur hekayəsi kimi göstərilə bilər. 3 il ərzində*

*bizimlə bərabər addımlayan Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, İqtisadiyyat Nazirliyi və onun nəzdində KOBİA-ya, beynəlxalq təşkilatlara, layihədə iştirak edən nümayiş şirkətlərinin təmsilçilərinə, ekspertlərə dərin təşəkkürümüzü bildiririk"* – deyə UNIDO-nun Azərbaycanda Milli İcra Tərəfdaşı olan ACE Group Consultants şirkətinin baş icraçı direktoru Asya Çələbova bildirdi.

RSDTİ təcrübələrinin tətbiqi ətraf mühitə diqqət yetirməklə yanaşı resurslardan daha ağıllı istifadə sayəsində gəlirləri maksimum artırmağa yönəlmişdir. Buna görə də RSDTİ iqtisadi artım üçün vacib olmaqla bərabər, həm də müəssisələr üçün rəqabət qabiliyyətini artırmaq, iş yerləri yaratmaq və innovasiyaları stimullaşdırmaq baxımdan mühüm imkandır. *"Dairəvi iqtisadiyyat xammalı mümkün qədər uzun müddət istifadədə qalan məhsullara çevirir, tullantıları minimuma endirir və digər iqtisadi fəaliyyətlər üçün material kimi istifadə edir. Azərbaycan müəssisələri ilə əməkdaşlıq edərkən bizim məqsədimiz onların biznes modellərini qiymətləndirmək, onlara bu təsirləri başa düşməyə imkan yaratmaq və iqtisadi fəaliyyətlərinin ətraf mühitə hər hansı mənfi təsirlərini minimuma endirməkdə onlara kömək etməkdir"*, - UNIDO-nun Layihə Meneceri xanım Tatyana Çernyavskaya vurğuladı.

Azərbaycanda dairəvi iqtisadiyyata keçidlə bağlı müzakirələr çərçivəsində iştirakçılar iki regionda (Bakı və Abşeron-Xızı) həyata keçirilən uğurlu pilot layihələrin təqdimatı da daxil olmaqla Sənaye Tullantılarının Xəritələşdirilməsi (İWM) konsepsiyası ilə tanış olublar. Tullantıların səmərəli idarə edilməsi sistemi istənilən istehsal müəssisəsi üçün biznes dəyərini artıra və müəssisələrin dayanıqlılığına töhfə verə bilər. Müzakirələr zamanı müəssisələr üçün daha sağlam fəaliyyət mühitinin yaradılması, rəqabət qabiliyyətinin artırılması və iş yerlərinin yaradılmasına diqqət yetirməklə Eko-Sənaye Parklarının (ESP) metodologiyası iştirakçılara təqdim edilib.

Milli tədbir bir sıra təşəbbüslər və metodologiyalar, təkmil bilik mübadiləsi, sənayedə təşviq olunan sinerji və gələcək əməkdaşlıq üçün qabaqcıl imkanlar vasitəsilə KOM-ların yaşıllaşdırılması perspektivlərinin müzakirəsini asanlaşdırdı.

Konfrans hökumət, özəl sektor, Qeyri-Hökumət Təşkilatları (QHT), sənaye ekspertləri, akademik dairələr və beynəlxalq təşkilatlardan 60-dan çox iştirakçını bir araya gətirdi.

EU4Environment təşəbbüsü üzrə RSDTİ fəaliyyətləri Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) tərəfindən həyata keçirilir və Azərbaycanda onun Milli İcraçı Tərəfdaşı olan ACE Group Consultants şirkəti tərəfindən dəstəklənir.

**Ümumi məlumat**

"Avropa İttifaqı Ətraf Mühit naminə" (EU4Environment – Yaşıl İqtisadiyyat) layihəsi Şərq Tərəfdaşlığı ölkələrinə ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və rəvac verməklə, ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə həmin ölkələrə öz təbii sərvətlərini qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etmək məqsədilə həyata keçirilir.

Funded by
the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

Layihə, təqribən 20 milyon AVRO büdcə ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş tərəfdaş təşkilatla birgə icra olunur: İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı. Təşəbbüsün icra dövrü 2019-2024-cü illəri əhatə edir.

Daha ətraflı məlumat üçün baxın: https://www.eu4environment.org/.

**Əlaqə**

Ms. Tatyana Çernyavskaya
EU4Environment Layihə Meneceri
Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO)
Email: T.CHERNYAVSKAYA@unido.org